

# Ulu öndər Heydər Əliyevin fəaliyyət fəlsəfəsi:
# Azərbaycançılıq konsepsiyası

1993-cü ildə xalqımız bir tərəfdən qardaş qırğını, digər tərəfdən isə xarici "havadar"ların separatçı qüvvələri fəallaşdırması nəticəsində ölkənin parçalanma təhlükəsi ilə üz-üzə qalmışdı. Həmin dövrdə ölkəyə rəhbərlik edən şəxslər yaranmış problemi həll etməkdə aciz idilər. Bu mürəkkəb vəziyyətdə xalq ulu öndər Heydər Əliyevi Bakıya dəvət etdi. Bu adi istək deyildi, xalqın müdrikliyi nəticəsində formalaşmış qərar idi. Bakıya gələn Heydər Əliyev olduqca mürəkkəb olan problemi qısa zaman kəsiyində həll etdi, həm ölkəni parçalanma təhlükəsindən, həm də xalqı qardaş qırğınından qurtardı. 1993-cü il iyun ayının 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi, 24 iyun tarixindən Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı. Nəhayət ki, çoxdan arzulanan möhtəşəm gün yetişdi: 3 oktyabrda xalq yekdilliklə Heydər Əliyevi Azərbaycan Respublikasının Prezidenti seçdi.

Xalq Heydər Əliyevi yaxşı tanıyırdı. Onun zəkasına, dünyagörüşünə, mənəviyyatına, siyasi iradəsinə, təşkilatçılıq bacarığına və ən əsası Vətəninə, xalqına bəslədiyi sevgiyə bələd idi. Ulu öndərin Azərbaycana və xalqa məhəbbətinin fəlsəfəsi isə öz təsbitini onun azərbaycançılıq konsepsiyasında tapdı.

Azərbaycançılıq konsepsiyasında ulu öndər Heydər Əliyev Azərbaycan xalqının sosial-psixoloji portretini yaratdı. Sözügedən konsepsiyanın ana ideyası bundan ibarətdir: *"...hamımızın birlikdə ən əsas məqsədimiz azərbaycançılığı möhkəmləndirmək, qorumaq və bütün Azərbaycan xalqını, Azərbaycan əhalisini bunun ətrafında birləşdirməkdir".*

Azərbaycanı möhkəmləndirmək, qorumaq, xalqı bu ideya ətrafında birləşdirmək! Bəli, azərbaycançılıq konsepsiyasının başlıca fəlsəfi - sosioloji parafrazı belədir. Bu konsepsiya ana dilimizə, milli-mənəvi dəyərlərimizə, qədim və zəngin tariximizə, millətimizə sadiq olmaqdan, torpaqlarımızı qorumaqdan və bütün azərbaycanlıları bu ideya ətrafında birləşdirməkdən ibarətdir.

Azərbaycançılıq konsepsiyası öz təcəssümünü ulu öndər Heydər Əliyevin Azərbaycan Respublikası KP MK-nın birinci katibi seçildiyi gündən onun fəaliyyətinin fəlsəfəsində tapmışdı.

## Ana dilinə məhəbbətin təzahürü

1969-cu ildə Azərbaycan Dövlət Universitetinin 50 yaşı tamam olurdu. Adətən, belə təntənəli tədbirlərdə respublika rəhbərləri yalnız rus dilində nitq söyləyirdilər. Lakin Heydər Əliyev bu mötəbər tədbirdə stereotipə çevrilmiş bu mənfi "ənənə"ni pozaraq Azərbaycan dilində möhtəşəm nitq söylədi. Laylalarda, nağıllarda, dastanlarda, qəzəllərdə, şeirlərdə, romanlarda, o cümlədən güzəran həyatında ana dilimizin müxtəlif məna çalarlarına - məlahətinə, cəzbediciliyinə, lirikliyinə, poetikliyinə, axıcılığına bələd olan azərbaycanlılar Heydər Əliyevin səlis nitqində doğma dilimizin siyasi potensialını duyur, natiqi fəxarətlə dinləyirdilər. Bu mötəbər nitq xalqın qan yaddaşını oyadaraq, onu müstəqillik uğrunda mübarizəyə səsləyirdi. Heç kimdən çəkinmədən xalqla öz ana dilində danışan Heydər Əliyev həmin gün Azərbaycan dilinə hörmət və ehtiramı ilə hamıya nümunə oldu.

## Xalq adət-ənənələri ilə yaşayanda inkişaf edir

SSRİ-yə daxil olan xalqlar "yeni sovet adət-ənənələri" çərçivəsində yaşamağa sövq edilirdi. Bu Sovetlər dönəminin siyasəti idi. Beləliklə, xalqların etnopsixoloji yaddaşını silməyə, tarixini unutdurmağa çalışırdılar. Bütün təbliğat işləri "sovet adamı" yetişdirməyə hesablanmışdı. Repressiya illərinin faciələrini yaşamış insanlar sovet ideologiyasına zidd gedənlərin acı taleyinə bələd idilər. Buna baxmayaraq, insanlar öz adət-ənənələrini unutmağın xalqın tarixinə xəyanət olduğunu bildikləri üçün ailə daxilində adət-ənənəni qoruyub saxlayır, formalaşan gənc nəsli milli köklərə sədaqət ruhunda tərbiyə etməyə çalışırdılar.

Ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlməsi xalqa öz adət-ənənəsi ilə yaşamaq imkanı verdi. İnsanlar xalqın əsrlər boyu yaşatdığı Novruz bayramını, Ramazan bayramını, Qurban bayramını, onların ritualları ümummilli liderin himayəsi ilə ümumxalq bayramı kimi qeyd etdilər. Dəfn mərasimlərində, toy şənliklərində adət-ənənələr bərpa olunur, xalqın qan yaddaşı oyanır, yenilənir, özünə qayıdır, azərbaycanlılar öz milli irsi ilə yaşamağa başlayırdı. Adət-ənənəni xalqa qaytarmaq - azərbaycançılıq konsepsiyasının tərkib hissəsi olmaqla yanaşı, ulu öndər Heydər Əliyevin xalqın etnopsixoloji mədəniyyətinə münasibəti, adət-ənənəyə, tarixə ehtiramı idi. O, xalqın öz adət-ənənəsi ilə yaşamasını onun inkişafının təməli kimi qiymətləndirirdi.

Müstəqillik illərində Heydər Əliyev Azərbaycanda milli bayramların daha təntənəli şəkildə qeyd edilməsinə nail oldu və onun yaratdığı ənənə bu gün ölkə Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən davam etdirilir.

## Xalqa qayğı Azərbaycançılıq konsepsiyasının tərkib hissəsi kimi

Ulu öndər Heydər Əliyev respublikamıza rəhbərlik etməyə başladığı dövrdə qısa zaman kəsiyində xalqın həyatında, yaşayışında böyük dönüş yarandı. Təsərrüfatın bütün sahələrində insanlar daha yaxşı işləməyə başladılar. Bunun səbəblərindən biri xalqa göstərilən qayğı idi. Əvvəlki illərdə qayğıdan uzaq qalan insanlarda yaranmış düşkünlük iqtisadiyyata da öz mənfi təsirini göstərmişdi. Azərbaycan iqtisadi göstəricilərinə görə müttəfiq respublikalar arasında axırıncı yerlərdən birini tuturdu. Heydər Əliyev respublikaya rəhbərlik etməyə başladığı gündən tez-tez pambıq sahələrinə, taxıl zəmilərinə, zavodlara, fabriklərə gedir, sadə əmək adamları ilə - fəhlə və kəndlilərlə görüşür, onlara qayğı göstərir, məişəti və problemləri ilə maraqlanır, qarşılaşdıqları çətinliklərin həll edilməsi üçün göstərişlər verir, ən əsası isə verdiyi göstərişlərin yerinə yetirilməsinə nəzarət edirdi. Xalq respublika rəhbərinin öz siyasətində onlara göstərdiyi qayğını hər an hiss edirdi. O illərdə pambıqçılıq təsərrüfatına rəhbərlik edənlərin laqeydliyi nəticəsində göz xəstəliyi sürətlə yayılırdı. Xəstəliyin qarşısının alınması üçün Heydər Əliyevin göstərişi ilə Bakıdan pambıqçılıq rayonlarına həkimlər göndərildi. Həkimlər arasında akademik Zərifə xanım Əliyeva da var idi. Bu tarixi fakt Heydər Əliyevin və ailəsinin xalqa məhəbbətinin parlaq nümunəsidir. Hamı gördü ki, Azərbaycan xalqına diqqət, qayğı, hörmət göstərməyi, hər bir azərbaycanlının rifahı uğrunda mübarizəni Heydər Əliyev və onun ailəsi özünün əsas vəzifəsi hesab edir. Bəli, hər bir azərbaycanlının qayğısına qalmaq azərbaycançılıq konsepsiyasının önəmli amallarından biridir.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Sovet Ordusunun ölkəmizdə törətdiyi qırğın nəticəsində günahsız insanlar qətl edildi. Respublikaya rəhbərlik edənlər bu hadisəni soyuqqanlılıqla müşahidə etdikləri vaxt Heydər Əliyev Moskvada Azərbaycanın Daimi Nümayəndəliyinə gəlib, qətliam ilə bağlı bəyanat verdi. Bu bəyanat qətliama verilən ilk siyasi qiymət olmaqla bərabər, həm də ulu öndər Heydər Əliyevin xalqa məhəbbətinin təzahürü idi.

Ümummilli liderimiz ikinci dəfə Azərbaycana rəhbərlik etməyə başlayanda ölkəmizdə bir milyon qaçqın və məcburi köçkün var idi. Ölkənin iqtisadi durumu acınacaqlı vəziyyətdə olsa da, əvvəlki rəhbərlərdən fərqli olaraq, Heydər Əliyev qaçqın və məcburi köçkünlərə diqqət göstərir, onlarla tez-tez görüşür, problemlərini həll etmək üçün xüsusi müşavirələr keçirir, müvafiq qurumlara zəruri göstərişlər verirdi. 1995-ci ildə Heydər Əliyevin tapşırığı ilə bu problemlərlə daha da ciddi məşğul olmaq üçün Nazirlər Kabinetində xüsusi vəzifə - Baş nazirin müavini vəzifəsi təsis edildi və qaçqınların, məcburi köçkünlərin problemi ilə əlaqədar hökumət komissiyası yaradıldı.

## Torpaqların qorunması hər bir azərbaycanlının əsas vəzifəsidir

Heydər Əliyev 1969-cu ildə respublikamıza rəhbərlik etməyə başladığı dövrdə ölkəmizdə hərbçi kadrların hazırlığı məsələsinə xüsusi diqqət göstərdi. Qısa müddət ərzində hərbi məktəblərdə təhsil alanlar arasında azərbaycanlıların sayı artdı. Bakının Zığ qəsəbəsində Cəmşid Naxçıvanski adına hərbi-lisey təsis edildi. Hərbi təhsil müəssisələri özünün sonrakı professional inkişafına xalqımız müstəqilliyini bərpa etdikdən sonra nail oldu və Bakıda müxtəlif təyinatlı hərbi məktəblər yaradıldı. Bu məktəblərin yaradılması Azərbaycanın hərbi potensialının artmasında mühüm rol oynadı, xalqın etnopsixoloji yaddaşındakı igidlik salnamələrini yenidən dirçəltdi, torpaqların qorunmasını hər bir azərbaycanlının əsas vəzifəsinə çevirdi.

Müstəqilliyin bərpasının ilk günlərində respublikaya rəhbərlik edən şəxslər ordu quruculuğu işinə biganə yanaşdılar. Nəticədə 20% torpaqlarımız işğala məruz qaldı, bir milyondan çox azərbaycanlı qaçqın və köçkün oldu. Düzdür, həmin dövrdə xalq özünümüdafiə dəstələri yaratdı, lakin təpədən-dırnağa qədər silahlanmış düşmən havadarlarının köməyi ilə müvəqqəti də olsa istəyinə nail oldu.

İkinci dəfə Azərbaycana rəhbərlik etməyə başlayanda ordu quruculuğu Heydər Əliyevin fəaliyyətinin əsas istiqamətlərindən biri oldu. Onun həyata keçirdiyi işlərin nəticəsi ordumuzun qəhrəmanlıq salnaməsinin yeni səhifələri II Qarabağ savaşında yazıldı. 44 gün ərzində ordumuz işğal olunmuş torpaqlarımızı azad etdi.

İndi işğaldan azad edilmiş torpaqlarda nəhəng quruculuq işləri həyata keçirilir. Beynəlxalq aeroportlar tikilir, ağıllı kənd və şəhərlər salınır, müxtəlif təyinatlı müəssisələr yaradılır. Bütün bunları biz inamla həyata keçiririk. Bir həqiqət bəllidir ki, indi gördüyümüz işlərə bir də heç kim xələl gətirə bilməyəcək. Azərbaycanın güclü Ordusu Vətəni, torpağı, xalqı inam və rəşadətlə qoruyur. Vətənin, torpağın, xalqın qorunması azərbaycançılıq konsepsiyasının əsas istiqamətlərindən biridir.

## Azərbaycanı dünya azərbaycanlılarının vətəninə çevirən lider

Dünyada bütün xalqların nümayəndələri müxtəlif ölkələrdə yaşayır. Lakin Azərbaycan nadir ölkələrdən biridir ki, xarici ölkələrdə yaşayanların sayı Azərbaycanda yaşayan əhalidən beş dəfə çoxdur. Müstəqilliyimiz bərpa olunandan sonra dünyaya səpələnmiş həmyerlilərimizlə əlaqələrimiz yaranmağa başladı. 1993-cü ildən etibarən Heydər Əliyev diaspor quruculuğu işinə xüsusi önəm verdi. O, bütün xarici səfərlərində azərbaycanlılarla görüşür, onların problem və qayğıları ilə maraqlanır, həmvətənlərimizi ölkəmizin inkişafı prosesində fəal iştirak etməyə çağırırdı. Lakin Azərbaycanı bütün azərbaycanlıların vətəni elan etmək, bu əlaqələri daha da möhkəmləndirmək, azərbaycanlılar arasında birlik və həmrəyliyi təmin etmək, digər ölkələrdə Azərbaycan icmalarının, cəmiyyət və birliklərinin fəaliyyətini gücləndirmək və əlaqələndirmək zəruri idi. Bu reallıqdan çıxış edərək Heydər Əliyev 23 may 2001-ci ildə "Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi haqqında"sərəncam verdi. Bu sərəncama əsasən 2001 - ci il noyabr ayının 9-10-da Bakı şəhərində qurultay çağırıldı. Qurultayda 36 ölkədən 403 nümayəndə iştirak edirdi. Bu qurultayın keçirilməsi ilə dünya azərbaycanlılarının birləşməsinə start verildi.

Ulu öndər Heydər Əliyev Dünya Azərbaycanlıları ilə əlaqələrin daha da sistemli həyata keçirilməsi və möhkəmləndirilməsi üçün 5 iyul 2002-ci ildə "Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında" Fərman imzaladı. İndi dünyanın bir çox ölkəsində yaşayan azərbaycanlılar müxtəlif məzmun və formada Azərbaycanın inkişafına öz töhfələrini verməyə çalışırlar. Bu il aprelin 22-də Şuşa şəhərində Dünya Azərbaycanlılarının V Qurultayı - Zəfər Qurultayı sözügedən istiqamətdə görülmüş möhtəşəm işlərin məntiqi davamı idi.

Heydər Əliyev öz çıxışlarında işğal olunmuş torpaqlarımızın azad ediləcəyi günün yaxında olduğunu dəfələrlə xalqa bildirirdi. Amma ömür vəfa etmədi. Torpaqlarımızın işğaldan azad edilməsini o, İlham Əliyevə vəsiyyət etdi. Hər bir azərbaycanlı Ali Baş Komandanın qürurla "Mən ata vəsiyyətini yerinə yetirdim" sözlərini deyərkən sevincdən yaşaran gözlərini gördü. Bu gün hər bir azərbaycanlı azərbaycançılıq konsepsiyasının İlham Əliyevin fəaliyyətinin özəyini təşkil etdiyini hər an görməkdədir.

Torpaqlarımızın işğaldan azad edilməsi və aparılan quruculuq işləri də azərbaycançılıq konsepsiyasının təsbitidir. Hər bir azərbaycanlı öz fəaliyyəti bu konsepsiyanın tələbləri çərçivəsində qurmaqla Azərbaycanın dünyanın aparıcı ölkələrindən birinə çevrilməsinə kömək edə bilər və etməkdədir…

**Hikmət ƏLİZADƏ,**
**Pedaqoji elmlər doktoru,**
**BDU-nun professoru.**